## *FOLKLORŞÜNASLIQ*

# Məhəbbət dastanlarında ilahi mənşəli obrazlar

**Almara Nəbiyeva**
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti. Azərbaycan.
E-mail: nebiyeva_almara@mail.ru

**Annotasiya**. Dastanlarımızın obrazlar sistemində Aşiq-Məşuqə ilə yanaşı, öz mükəmməlliyi ilə seçilən ilahi mənşəli bədii surət Xızırdır. Bununla məlum olur ki, dərviş, Ağa, Həzrət Əli, Şahmərdan, Xızır Nəbi kimi eyni obraz sistemi məhəbbət dastanlarının strukturunda çox vacib bir element kimi çıxış edir və bir çox funksiyaları həyata keçirir.
Məhəbbət dastanlarında obrazların təsnifində ən mühüm rollardan biri dərviş-Həzrət Əli-Xızır Nəbi obrazına məxsusdur. Bu obrazın süjet fəallığının az və ya çox olmasından asılı olmayaraq, aşiq və məşuqə arasında əlaqə yaradıcı obraz kimi dastanlarda mühüm yer tutur.
**Açar sözlər:** dastanlar, ilahi obrazlar, Xızır, Həzrət Əli, Xıdır, dərviş, Manas, Novruz

**Məqalə tarixçəsi:** göndərilib – 11.04.2021; qəbul edilib – 29.04.2021

# Images of divine destiny in love epics

**Almara Nabiyeva**
Doctor of Philosophy in Philology
Baku State University. Azerbaijan.
E-mail: nebiyeva_almara@mail.ru

**Abstract.** In the system of images of our love epics, along with lovers, the artistic image of divine origin, which is chosen by their perfection, is Khizir. In the article it is shown that dervishes are transformations of the same images as Agha, Hazrat Ali, Shahi Mardan, Khizir Nebi, and they are a very important element in the structure of the love epics and perform many functions.
One of the most important roles in the classification of images in love epics belongs to the image dervish-Hazrat Ali-Khizir Nabi. Regardless of the activity of this image, the connection between the lovers occupies an important place in epics as a creative image.
**Keywords:** epics, divine images, Khizir, Hazrat Ali,Khidir, dervish, Manas, Novruz

**Article history:** received − 11.04.2021; accepted − 29.04.2021

## Giriş / *Introduction*

"Kitabi-Dədə Qorqud", "Koroğlu", "Tahir və Zöhrə", "Əsli və Kərəm", "Aşıq Qərib", "Əmrah", "Şahzadə Əbülfəz", "Məsum və Diləfruz", "Valeh və Zərnigar", "Avdı və Mehriban" və s. dastanlar ehtiva etdiyi məzmun və poetik düşüncə, əhatələdiyi struktur sistemi və digər baxımından tipikdir. Bu zənginlikdə aydınlaşmalı problemlərdən biri İlahi mənşəli obrazlardır.

Dastanlar ustad aşıqlar tərəfindən yaradılıb el adət-ənənəsində yüz illər boyu xalqın ruhunun, mənəvi-əxlaqi dəyərlərinin qorunmasında, formalaşmasında əvəzsiz hadisə kimi əhəmiyyət

kəsb etmişdir. Ona görə də bu folklor abidələrinin yaradıcıları olan ustad aşıqlar xalq tərəfindən həmişə uca tutulmuşdur. Ustad aşıqlar yaratdıqları dastanlarla etnosun keçib gəldiyi və gedəcəyi yolun ümumi xəritəsini cızmışlar.

**Əsas hissə / *Main Part***

Məhəbbət dastanlarında obrazların təsnifində ən mühüm yer dərviş, Həzrət Əli, Xızır Nəbi obrazlarına məxsusdur. Sözügedən dastanlarda aşiq və məşuqun taleyində müstəsna rol oynayan dərviş-Həzrət Əli-Xızır Nəbi həm də yönləndirici funksiyası ilə nəzər-diqqəti cəlb edir. Bu nurani dərviş Həzrət Əli, Şahmərdan Ağa, Göy atlı, Xızır peyğəmbər, Xızır Nəbi, Xızır İlyas və s. adlarla adlandırılır. "Aşıqlar Həzrət Əlini "Şahi-Mərdan" (adamların şahı), "Ağalar ağası", "Düldülün sahibi, Qənbər ağacı", "Şiri-Yəzdan", "Heydəri-Kərrar" kimi adlarla vəsf edirlər. "Beş gözəl", "On dörd məsum", "Əhli-Beyt" obrazları içində nəzərdə tutulan islam müqəddəsləri arasında yer alanların da biri Həzrət Əlidir" [5, s.121].

Fərqli şəkildə adlanmalarına baxmayaraq, bunlar hamısı bir obraz kompleksinə daxildir. Yəni bu obrazlar məhəbbət dastanlarında dastan qəhrəmanına çətin məqamda kömək etməklə, onun murada çatmasında yardımçı rolunu oynayırlar. Bu obrazın süjet fəallığının az və ya çox olmasından asılı olmayaraq mətndə, hadisələrin ana axarında aşiq və məşuq arasında əlaqələndirici funksiyası diqqətçəkicidir. Qəhrəmanlara buta verən ilahi qüvvə axıradək onu müşayiət edir.

Xızır genetik-tipoloji cəhətdən ciddi tipoloji təhlillərin probleminə çevrilmiş, onun türkdilli xalqların, yaxud ərəb xalqının mifoloji təfəkkür məhsulu olması barəsində maraqlı fikirlər söylənmişdir. Bu barədə tədqiqatçıların müxtəlif fikirləri vardır. M.Seyidov qeyd edir ki, "Xızır (Xıdır yox!) türkdilli xalqların, o sıradan azərbaycanlıların təfəkkürünün məhsuludur. "Xızır" türkdilli sözdür; "xız" ("xıd") və "ır" tərkibindən yaranmışdır. Xız//Xuz sözünün "qızmaq", "hərarət", "atəş", "qız (ğınlıq)", "coş (ğunluq)", "qüvvət-qut", "ır", ır//uq və onun "yır, "cır", "jır", "ir" variantları türk dillərinin dialektlərində "mahnı" deməkdir" [7, s.106-107].

Azərbaycanda və digər türkdilli xalqların yaradıcılığında həm Xızır, həm də Xıdır adına rast gəlinir. Sədnik Paşayev Xızırı üç formada – "Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Zində (Xıdır Nəbi qurunun sahibidir, Xıdır İlyas su və yaşıllıq məbududur, Xıdır Zində buzda ocaq qalayır), M.Seyidov isə Xıdır Nəbi, Xıdır İlyas və Xıdır Ellez" [2, s.87] kimi təsnifləşdirir. Xızırın müxtəlif variantlılığı həm də regional xarakter daşıyır. Xıdır İlyas və Xıdır Nəbi daha geniş yayılmışdır. Xızır və Xıdır eyni addır. Güman ki, ərəb dilində Xıdır deyilən peyğəmbərin adı Azərbaycan dilində Xızır fonetik variantında işlənmişdir. Azərbaycanca "z" ərəbcədəki "d-z" hərfi ilə bir növ eyni səsləşmə təşkil edir. Türk dillərində "z" və "d" hərflərinin səsləşməsi qanunauyğundur. Eyni zamanda folklor nümunələrində, eləcə də dilimizdə vaxt keçdikcə müxtəlif sözlərdəki hərflərin fonetik dəyişikliklərə uğraması rast gəlinən haldır [2, s.88 ].

Xızır sakral obrazdır, peyğəmbərdir və ilahi dünya ilə bu dünya arasında vasitəçilik edir. Onun mediatorluq funksiyası mifik mənşəlidir. "Orta əsr Azərbaycan abidəsi "Munisnamə"də o, quş cildli xilaskar peyğəmbərdir və ağacla bağlıdır" [3, s.164]. Orta Asiya türklərinin folklorunda Xızır peyğəmbərin adı tez-tez çəkilir. "Manas" və "Alpamış" dastanında da Xızır peyğəmbərin təsvirinə rast gəlinir.

Xızır obrazına Azərbaycan məhəbbət dastanlarında geniş yer verilmişdir. Təkcə məhəbbət dastanlarında deyil, "Kitabi-Dədə Qorqud" dastanının "Dirsə xan oğlu Buğac" boyunda da Xızır obrazı vardır. Buğac ölümcül halda olanda Boz atlı Xızır oğlanın yanına gəlib üç dəfə yarasını əliylə sığallayıb: "Sana bu yaradan, qorxma, oğlan, ölüm yoxdur. Tağ çiçəgi anan südilə sənin yarana məlhəmdir" – dedi, qaib oldı" [4, s.39]. Məhəbbət dastanlarının bir çoxunda Xızır peyğəmbər fərqli funksiyalarla çıxış edir. Dastanların bu növündə Xızırın funksiyalarına övladsızlara övlad vermə də daxildir. Hələ qəhrəmanlar doğulmamışdan dərviş – nurani kişi sonsuzluqdan əziyyət çəkən ixtiyar valideynlərə kömək edir. Dərviş – nurani kişi ixtiyar valideynlərə alma verir, ya da nəzir-niyaz paylamağı və ya söz verib əhd etməyi məsləhət görür. "Qurbani", "Alı xan-

Pəri", "Tahir və Zöhrə", "Lətif şah" dastanlarında dərvişin bu funksiyasına rast gəlirik. Məsələn, "Lətif şah" dastanından bir epizoda baxaq: "...Yəmən şəhərində Dərdli şah adında bir padşah varmış. Bunun mal-dövləti həddən artıq imiş. Özü də ədalətli şah idi. Amma ki, dünyada özündən sonra mal-dövlətinə sahib olacaq bir züryəti yox imiş. Dünyada həkim qalmamışdı, ziyarət qalmamışdı ki, padşah arvadı ilə getməsin. Amma heç cür dərdinə çarə tapa bilmirdi. Padşahın vəzirlərindən biri Qoca Lələ deyir ki, padşah sağ olsun, yeddi yol ayrıcında bir ev tikdir. Gələnə-gedənə çörək ver, aş ver, qonaq elə. Bəlkə bir ağzıdualı kimsə rast gəldi, sizin dərdinizin çarəsini dedi. Padşah vəzirin dediklərini edir. Amma aylar, günlər keçir, bir nəticə olmur. Padşah Lələyə deyir ki, gəl dərviş-libas olub ova çıxaq, həm də o evlərə baxaq, görək gəlib-keçənə nə cür yemək verirlər. Qoca Lələ padşahın sözlərini qəbul edir və dərviş libası geyib evlərinin yanına gedirlər. Qulluqçular onları zorla aparıb yedirdir, içirdirlər. Qulluqçulardan biri dedi ki, ay dərviş babalar, sizin ağzınız dualı olur, bir dua oxuyun, bəlkə bizim padşahın bir oğlu olar.

Bu evin yanında bir gül bağçası var idi. Padşah ilə Lələ bu bağa girəndə bir nurani dərviş onların qabağına çıxır. Padşahla salamlaşaraq deyir: Səlaməleyküm, Dərdli şah! Padşah təəccüblənir, onun dərdli olmasını haradan bildiyini soruşur. Dərviş isə dərdinin üzündən bəlli olduğunu söyləyir. Padşah dərdinin çarəsini və çözümünü dərvişdən umur: "De görüm mənim dərdimin əlacı nədir? Dərviş cibindən bir qırmızı alma çıxarıb deyir ki, bu almanı düz ortadan ikiyə böl, yarısını sən ye, yarısını də xanımına ver! Gün keçər, ay dolanar, bir oğlunuz olar. Padşah dərviş dediyi kimi edir və doqquz ay, doqquz gün, doqquz saat tamam olduqdan sonra Soltan xanım bir oğlan dünyaya gətirir" [1, s.232-233].

Azərbaycan dastanlarında Xızır gələcək aşiqlərə yuxuda badə verir. "Aşıq Qərib", "Novruz-Qəndab", "Qurbani", "Lətif şah", "Abbas və Gülgəz" kimi məhəbbət dastanlarında buta vermədə bunu görmək mümkündür.

"Badə – haqq aşıqlarına və dastan qəhrəmanlarına röyada müqəddəslərin əli ilə ərməğan olunan rəmzi-məcazi içki. İnanca görə, üzərində ilahi aləmin nəzəri olan gənc bir adam (yetim bir oğlan, çoban, tacir oğlu, əkinçi və s.) yatıb yuxuya gedir və röyada ağ libaslı dərviş, Xızır və ya Həzrət Əli ona mey dolu badə təklif edir. Gənc adam əvvəlcə badədən imtina edib onun haram buyrulduğunu bildirir. Badə verən onu inandırır ki, bu, haram badələrdən deyildir" [5, s.61].

Məhəbbət dastanlarında daha geniş şəkildə istifadə edilmiş bu motivdə aşiq və məşuq arasındakı məhəbbət butavermə yolu ilə yaranır. "...Bir-birini görməyən, tanımayan, adətən uzaq ellərdə yaşayan iki cavanın görüşməsi, vüsala yetmək üçün bir-birini axtarıb tapması, maneələrə qalib gəlib bir-birinə qovuşması butanın başlıca mahiyyətini təşkil edir. Bizə gəlib çatan qaynaqlarda "buta" mülayim, xoş qılıqlı nurani qocalar tərəfindən cavanlara yuxuda "badə" içirmək yolu ilə verilir, aşiq-məşuqun surətləri bir-birinə tanıdılır, ünvanları bildirilir..." [6, s.412]. Qəhrəmanların bir-birini yuxuda görüb aşiq olmaları qədim dövrlərdən mövcuddur. Bu motivə biz hələ bizim eradan əvvəl, təqribən IV əsrin rəvayətlərində, əfsanələrində də görürük. M.H.Təhmasib bu motivlə bağlı haqlı olaraq "Zərirlə Odatidenin macərasını göstərmişdir. Bura da qəhrəmanlar bir-birini yuxuda görmüş və sevmişlər. Uzun maneələrdən, mübarizələrdən sonra sevgililər bir-birinə qovuşmuşlar" [8, s.68].

Nağıllarda da buna dair xeyli nümunə göstərmək olar. Məsələn: "Nar qızı" nağılında da padşahın oğlu yuxuda Nar qızına aşiq olur. Müxtəlif maneələrdən sonra şahzadə Nar qızı alıb qırx gün, qırx gecə toy edir. Bu motivin sonradan dastanlarda xüsusi "buta vermə" şəklinə düşməsini M.H.Təhmasib sonrakı dini qanun-qaydalarla, xüsusilə islamiyyətin gətirmiş olduğu hicabla əlaqələndirir. "Zərir və Odatide"də qız ata tərəfindən xüsusi təşkil edilmiş ziyafətdə öz piyaləsini seçib bəyəndiyi oğlana şəxsən təqdim edə bilərdi. Çünki o və onun kimi qızlar oğlanlarla bir məclisdə olurdular. İslam dini isə belə məclisləri yasaq etmiş, buna görə də qızın bəyəndiyi oğlana piyalə təqdim etməsi ən yaxşı hallarda nağıllarımızdakı "oğlan dalınca alma atmaq"la əvəz edilmişdir [6, s.68].

Məhəbbət dastanlarında qəhrəmanların bir-birini yuxuda görüb aşiq olmalarını M.H.Təhmasib çox qədim bir ədəbi vasitə hesab etmişdir. Bəlkə də elə bu kütləvi yayılma onu sonradan aşıqların ədəbi vasitəsinə çevirmişdir. Ümumiyyətlə, butavermə, buta arxasınca getmə insanların

düşüncəsində lap qədimdən özünü göstərmişdir və ənənəvi bir hadisə kimi istər xalq nağıllarında, istərsə də sonralar aşıqlar tərəfindən dastanlarda da özünü göstərmişdir.

Buta, Xızır, Əli – Şahi-Mərdan, Qırxlar piri və müxtəlif nağıl və dastanlarda oxşar görkəmdə görünən müdrik insanlar tərəfindən verilir. Bunlar üçün ortaq keyfiyyət onların xilaskarlıq funksiyasını yerinə yetirmələridir. Dastanlarda Xızır peyğəmbərdən istifadə edilməsini M.H.Təhmasib belə ifadə edir ki, “bu “dindən icazə alma”, “qanuniləşdirmə” tədbirini mümkün qədər daha da qanuna mindirmək üçün meydana çıxan obrazdır” [5, s.67].

Dastanlarda insanlara övlad payı verən, yeni həyat müjdəçisi, yolçular və yol itirənlərin köməkçisi kimi tanınmış bir əsatiri obraz olan Xızır peyğəmbər buta verməklə həyatdan əl üzmüş, inamını itirmiş insanların yenidən gələcəyə ümidlə baxmasına, inam qazanmasına kömək edir. Onun gələcəyə inam, ümidvermə motivləri nağıllarda daha güclüdür.

“Aşıq Qərib” dastanında Xızır Aşıq Qəribə həm buta vermiş, həm yolda harayına çatmış, həm də anasının kor olmuş gözlərinin açılmasına kömək etmişdir. Xızır, eləcə də onun atı dastanlarda ən çox rast gəlinən köməkçi süjetlərdir. Xızırın atı, həmçinin Süleyman peyğəmbərin xalçası, Zümrüd quşunun gətirdiyi yel atı insanların mənzil başına tez çatmaq arzusunu yerinə yetirir, onların qələbəsində mühüm rol oynayırlar. “Süleyman peyğəmbər eşqinə məni filan yerə apar” müraciətindən əlavə, qəhrəmanın çətin anında, gözləmədiyi bir vaxtda Xızır atı ilə onun köməyinə çatır, onu getməli olduğu yerə bir göz qırpımında çatdırır. Nağıllarda geniş şəkildə rast gəldiyimiz bu motivlər dastanlarda da özünə yer alır. “Aşıq Qərib” dastanında Qəribi bir göz qırpımında Tiflisə çatdıran da Xızırın atıdır.

Göründüyü kimi, butalanma ilkin dövrlərdən insanların düşüncələrində, təsəvvürlərində mövcud olmuş, müxtəlif zamanlarda əsatirlərdə, rəvayətlərdə, nağıllarda özünü göstərmişdir. Sonralar dastanlarda da bu motiv aşıqlarımız tərəfindən mükəmməl şəkildə işlənmişdir. “Butalanma”, “buta” verməklə bağlı olan bir çox məsələlər dastanlarda bu gün də özünü göstərir.

Qəhrəmanlara buta verdikdən sonra Xızır dastan boyu aşiq və məşuqu müşayiət edir və onları qarşılarına çıxan bütün çətinliklərdən xilas edir. Bu da Xızırın bir qədər sonra bəhs edəcəyimiz xilaskarlıq funksiyası ilə əlaqədardır. M.Seyidov yazır ki, “Xızırın aşiqlərə kömək etməsi məsələsi bir çox mifik inamlarla, təbiəti, həyatı, hətta insanların ailə quruluşunu dərk etməsi ilə də bağlıdır. Xızır həm gəncləri bir-birinə sevdirir, həm də darda qalanlara kömək əlini uzadır. Onun vurğun – aşiq etdiyi oğlanlar birdən-birə aşıq da olurlar. Deməli, Xızır gəncləri həm aşiq, həm də aşıq edir. Onun fikrincə, yazın istiliyini təmsil etdiyi üçün Xızır həm də Günəşlə bağlıdır. Günəşin istiliyi, günəşin özü gəncliyə aşıqlıq verir, onları aşiq edir ” [7, s.129]. Dastanlarda ilahi qüvvə kimi təsvir olunan Xızır itənlərə yol göstərməklə bir növ xilaskarlıq funksiyasını yerinə yetirir və aşiqi çıxılmaz vəziyyətdən çıxarır. Xızır insanlara həm quruda, həm suda (bəzi qaynaqlara görə suda insanların köməyinə çatan İlyasdır) dadına çatması ən geniş yayılmış və tanınmış funksiyasıdır. Bunun ən gözəl nümunəsinə “Novruz-Qəndab” dastanında rast gəlirik. Dastanda deyilir: “...Dərya üzərində çarəsiz qalan Novruz görür ölüm vaxtıdı, ona buta verən dərvişi haraya çağırır:

*Novruz da çağırır səni imdada,*
*Bir dərviş donunda vermişdin bada.*
*Tut məni dəstimdən, yetir Qəndaba,*
*Kərəm eylə, qoyma məni dəryada!*

Böyük ustadların dediyinə görə, Novruzun ağzından söz qurtarmamış Xıdır İlyas dərviş paltarında hazır olub Novruza dedi:

– Gözünü yum!

Novruz gözünü yumdu. Bir zaman gözünü açıb, özünü dəryadan kənar gördü...” [1, s.176-177].

Dastanın digər bir variantında Xızır Novruz tərəfindən “Həzrət Xızır” kimi göstərilir:

*Könül havalanıb ağasın gəzir,*
*Bu müşkül halımda sən olsan hazır,*

*Sənə qurban olum, ya Həzrət Xızır,*
*Kərəm eylə, qoyma məni dəryada [1, s.176].*

"Aşıq Qərib", "Əsli və Kərəm", "Lətif şah" və başqa dastanlarda da Xızır yol itirənlərə yol göstərir, aşiqləri çətin vəziyyətdən xilas edir. Bu sehrli qüvvə yel qanadlı atı ilə 40 günlük yolu bir göz qırpımında qət edərək Aşıq Qəribi Şahsənəmin toyunun sonuncu məqamında Hələbdən Tiflisə çatdırır, "Abbas və Gülgəz" dastanında Abbası quyudan çıxarır.

Qeyd etmək lazımdır ki, dastan yaradıcılığının sonrakı mərhələsində nurani dərviş öz yerini Xıdır İlyasa verir. Buna yuxarıda "Novruz-Qəndab" dastanından gətirdiyimiz nümunədə rast gəlirik. Dastanın əvvəlində Novruza buta verən nurani dərvişdir. Novruzu dəryadan xilas edən, dərviş donunda gözə görünən Xıdır İlyasdır. Bunların hər ikisinin də vəzifəsi eynilik təşkil edir.

Dastanlarda Həzrət Əli sonrakı hadisə olduğu üçün Xızır Nəbi geniş istifadə edilir. Adlarının fərqli qeyd olunmasına baxmayaraq, bu ilahi qüvvələr eyni vəzifəni həyata keçirir.

Dərvişin ilahi qüvvəyə malik olduğunu qeyd etmişik. Bunun ən gözəl nümunəsinə "Novruz-Qəndab" dastanında rast gəlirik:

"...Calal padşah bir qəfəsin içində bir bülbül saxlayırdı. Bülbülün yanına dibçəkdə bir gül qoymuşdu. Yuxarıdan da bir şamdan asdırmışdı. Bir gecə yuxuda gördü ki, bir qızıl quş imarətə daxil olub şamı söndürdü, şamın sönməyindən qəfəsdəki bülbül öldü, gülün də yarpaqları töküldü. Calal padşah yuxunu yozmaq üçün vəziri çağırdı. Vəzir yuxunu yozmaqda aciz qaldı. Şəhərdə nə ki yozucu var hamısının yanına getdisə də, heç biri bacara bilmədi. Vəzir Qəndab xanımın yanına gedir ki, yuxunu yozsun. Qəndab deyir:

– Ağa vəzir? Siz heç buraya gələn deyildiniz. Nə olub şeytanın ayağını qırıbsınız?

Vəzir əhvalatı tamamən söyləyir. Dərviş diqqətlə qulaq asıb deyir:

– Nə verərsən, mən şahın yanına gedim, o yuxunu yozum?

Vəzir bütün mülkünü vəd edir. Dərviş gülüb deyir:

– Vəzir, biz pay alan dərvişlərdən deyilik, pay verən dərvişlərdənik.

Dərvişi Calal paşanın yanına aparır. O deyir: "Şamdandakı şamlar sənin oğlanların, qəfəsdəki bülbül Novruz, gül də Qəndabdı. Haman şamı keçirən quş Allahın bəlasıdı. Əgər Qəndabı Novruza verməsən, onda oğlanların da, qızın da öləcək, taxtın tar-mar olacaqdı.

Padşah qəzəblənib deyir:

– Tutun bu dərvişi!

Padşah çığıranda dərviş qeybə çəkildi. Vəzir, vəkil, ağsaqqal şaha ərz elədi:

– Padşahımız, bu, sən deyən dərvişlərdən deyil. Bu Yusifi Züleyxaya yetirən dərvişlərdəndir" [1, s.184-185].

Yalnız bundan sonra Calal paşa dərvişdən qorxub Novruzu zindandan çıxartdırır. Nümunədən göründüyü kimi, Novruza dastanın əvvəlində buta verən, onu dəryadan xilas edən, indi də Qəndabı Novruza yetirmək üçün gələn Xızır İlyasdır. "Novruz-Qəndab" dastanında yuxu xilasedici qismində çıxış edir. Dastanda aşiq və məşuqun bir-birinə qovuşmasına səbəb olur.

Xızırın adqoyma və ölüləri diriltmə funksiyalarına Azərbaycan dastanlarında az rast gəlinir. Xızırın adqoyma funksiyasına "Lətif şah" dastanında, ölüləri diriltmə funksiyasına isə "Dirsə xan oğlu Buğac" boyunda yer verilmişdir. Bu motiv "Alpamış" və "Manas" dastanında da istifadə olunmuşdur. "Manas" dastanında da qəhrəman doğularkən Xızır peyda olur, doğulmuş uşağa dua edir" [2, s.124].

## Nəticə / *Conclusion*

Beləliklə, dastan strukturunda İlahi mənşəli obrazlar funksional mahiyyəti ilə mükəmməl təsəvvür formalaşdırır. Xilasedici, kömək edən, eyni zamanda aşiq və məşuqun bir-birinə qovuşmasına yardımçı olma və ola bilmə imkanları ilə səciyyələnir. Müşkülləri həll edən, buta verən funksiyasına yüklənir. Bütün bunlar dastan yaradıcılığında obrazlaşmanın çeşidliliyini və İlahi mənşəli obrazların funksional məzmununu aydınlaşdırır.

**Ədəbiyyat / *References***


1. Azərbaycan dastanları. Beş cilddə, I cild. Bakı: Lider, 2005.
2. Babayeva X.Ə. Azərbaycan folklorunda Xızır Nəbi (İlyas) obrazı. Bakı: Yazıçı, 2013.
3. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000.
4. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
5. Qasımlı M., Allahmanlı M. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Bakı, 2019.
6. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı (dərslik), II cild. Bakı: Elm, 2006.
7. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983.
8. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Doktorluq dissertasiyası, BDU-nun elmi kitabxanası. Bakı, 1972.


## Образы божественного предназначения в любовных дастанах


**Алмара Набиева**
Доктор философии по филологии
Бакинский Государственный Унивеситет. Азербайджан.
E-mail: nebiyeva_almara@mail.ru



**Резюме.** В данной статье наряду с образами влюблённых, особое место в художественном аспекте отводится образу божественного предназначения в лице пророка Хызыра. Аналогичные образы, такие как пророк Наби, Имам Али, дервиш Ага, Шахмердан, занимают центральное место в сюжетной тематике любовных дастанов. По этой причине в наших дастанах исследуются суть образов Божественного предназначения, невиданная помощь, оказываемая ими героям дастанов, наделение символическим даром буты и т.д.


**Ключевые слова:** дастаны, божеские образы, пророк Хызыр, Имам Али, Хыдыр, дервиш, Манас, Новруз